2-5/1-2173/2024
20.02.2024

AZƏRBAYCAN RESPUBLİKASI "AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Az 1012. Bakı şəh., Moskva pr.,67. Tel.:(+994 12) 430 01 31, faks: (+994 12) 431 51 51. E-mail: office@azersu.az

"19" 02 2024 il

№ 18-16/2-02/02-2/1/1264/11/2024

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkilinin
(Ombudsmanın) Aparatına

Sizin, Turan İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ünvanlanmış 12 fevral 2024-cü il tarixli 2-5/2-3355/2024 nömrəli informasiya sorğusu ilə bağlı məktubunuza aidiyyəti üzrə baxılmışdır.

Diqqətinizə çatdırırıq ki, informasiya sorğusunda qeyd olunan "Xəzər" sanatoriyasının daxili içməli su və kanalizasiya layihəsi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən icra edilmir və ünvanlanan sualların cavablandırılması Cəmiyyətin səlahiyyətinə aid deyil. "Azərsu" ASC yalnız həmin obyektin xarici içməli su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi üçün Texniki şərtlərinin verilməsini təmin etmişdir.

"Xəzər" sanatoriyasının xarici su təchizatı və kanalizasiya sistemlərinin layihəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının struktur bölməsi olan "Kurort" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə həyata keçirilir. Sanatoriyanın kanalizasiya şəbəkəsinə qoşulması ilə bağlı Texniki şərtlərin alınması üçün "Kurort" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən 11 aprel 2019-cu il tarixində "Azərsu" ASC-yə müraciət daxil olmuşdur. Bununla əlaqədar zəruri araşdırma və qiymətləndirmə işləri aparılmış və Texniki şərtlər toplusu hazırlanaraq sifarişçiyə təqdim edilmişdir. 17 yanvar 2024-ci il tarixində "Xəzər"

N

sanatoriyasından Texniki şərtin müddətinin uzadılması ilə bağlı yeni müraciət daxil olmuş və müsbət cavablandırılmışdır.

Bununla əlaqədar Turan İnformasiya Agentliyinin direktoru Mehman Əliyevlə telefon əlaqəsi saxlanılmış və informasiya sorğusundakı sualların cavablandırılması üçün aidiyyəti təşkilatlara müraciət etməsi tövsiyə edilmişdir.

Sədrin birinci müavini Teyyub Cabbarov